# *ÜRƏKLƏRİN SƏRDARI*

**Kərbəlayi Rza Ağalı**

مِنَ الْمُؤْمِنِينَ رِجَالٌ صَدَقُوا مَا عَاهَدُوا اللَّهَ عَلَيْهِ فَمِنْهُمْ مَنْ قَضَى نَحْبَهُ
وَمِنْهُمْ مَنْ يَنْتَظِرُ وَمَا بَدَّلُوا تَبْدِيلا

**Möminlərdən elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (verdikləri sözü) əsla dəyişməzlər.**

*Əhzab surəsi, ayə 23*






Kitabın adı....................................Ürəklərin Sərdarı
Müəllif:....................................Kərbəlayi  Rza Ağalı
Nəşriyyat:................... “ООО Типография КЕМ”
Çap tarixi:........................................................... 2025
Çap növbəsi:................................................... Birinci
Tiraj:..............................................................1000


تویی از عاشقان سر به زیر و سربلند ما
تویی از اهل بیت عشق ای خورشید نشان

*BAĞIŞLAYAN VƏ MEHRİBAN ALLAHIN ADI İLƏ*

# ŞƏHİDİN HƏYATINA QISA BİR BAXIŞ

Əziz İslam şəhidi Hacı Qasim Süleymani 1957-ci ilin mart ayının 11-də Kerman vilayətinin Rabor rayonunun Qənat Məlik kəndində dindar bir əkinçi ailəsində dünyaya göz açmışdır. Valideynləri Süleymani qəbiləsindəndir. Babaları Nadir şah Əfşarın Əfqanıstan və Hindistana qoşun yeritdiyi zaman ona köməyə getmiş, döyüşdən qayıdanda indiki yerlərində sakin olmuşlar.

Atası Həsən Süleymani heç zaman süfrəsinə şübhəli tikə qoymayıb. Onun Qasimdən başqa iki oğlu və iki qızı da vardır. Qasim ibtidai təhsilini Qənat Məlik kəndində başa vurmuş, kəndin digər oğlanları kimi təhsillə yanaşı əkinçilik və maldarlıqda atasına kömək etmişdir. Boş vaxtlarında idmanla məşğul olardı və Ayətullah Xomeyninin ardıcıllarından olan Höccətül-islam Kamyab adlı təbliğatçısının xütbələrinə qatılardı. O, təxminən bütün inqilab hadisələrində, o cümlədən, şahın heykəllərinin aşırılmasında fəal iştirak etmişdi. Kerman inqilabçılarının bir polis bölməsinə hücumuna da qatılmış, oradan bir kolt tapançası götürüb şəhadətinə qədər saxlamışdı. İnqilabdan sonra Kazimi dördyolunda müxtəlif qruplaşmalarla, münafiqlərə, xalq fədailərinə və digər təşkilatlara

bağlı qüvvələrlə Kerman inqilabçıları arasında baş verən toqquşmalarda inqilab fəallarının dillər əzbəri olmuşdur. İnqilabdan sonra su idarəsində işləməklə bərabər, inqilabçı gənclərlə birlikdə məhəllələri qoruyur, gecələr patrul çıxırdı.

Qasim Süleymani İslam İnqilabının Keşikçiləri Korpusu və onun Kerman şöbəsi yaranandan sonra 1979-cu ilin yayında orada könüllü fəaliyyətə başladı və həmin ərəfədə 14 noyabr 1979-cu ildə dindar bir ailədən olan xanımla nişanlandı.

Bir ilə yaxın könüllü əməkdaşlıqdan sonra 1980-cı ilin avqust ayında rəsmi üzv kimi Kerman korpusuna qəbul olundu, bir neçə gündən sonra pasdar təlimində iştirak etdi. Təlimlər 22 sentyabr 1980-cı ildə bitdi və İraqın keçmiş Bəəs rejiminin elə həmin tarixdə İrana hücumuyla Qasim Süleymaninin həyatında yeni dönəm başladı.

Hələ 30 yaşı tamam olmamasına baxmayaraq böyük hərbi əməliyyatlara qatılır. İraqın işğal etdiyi torpaqları geri qaytarmada, eləcə də müvəffəqiyyətli əməliyyatlar bais oldu ki, tez bir zamanda ordu sıralarında yüksəlir və cəsarəti ilə şöhrətini artırır. Bu uğurlu yüksəlişin sonu 41-ci Sarəllah divizonunun komandiri təyin olunur. Əsas cənub cəbhəsində döyüşən Qasim Süleymani 1981-çi ildə keçirilən Tariq-əl-Qüds əməliyyatında ağır yaralanır.

General Qasim Süleymani 1998-2020-ci llərə qədər ölkə xaricində keçirilən gizli hərbi əməliyyatlar icra

edən xüsusi hərbi birləşmə olan Qüds qüvvələrinin komandiri olub. Hərbi koryerasına 1980-cı illərdə İran-İraq müharibəsinin başlancığında 41-ci Sarəllah divizonunun komandiri olaraq başlamışdır. İraqda Səddam əleyhdarı olan şiə və kürd qruplaşmalarına, daha sonra Livanda təşkilatlanan Hizbullah və Fələstinli hərbiləşdirilmiş təşkilat Həmasa hərbi dəstək verən əməliyyatlarda iştirak edib. 2012-ci ildə Suriyada vətəndaş müharibəsi əsnasında İranın müttəfiqi kimi Suriya hökumətini dəstəklədi . Qasim Süleymani 2014-cü illərdə İŞİD-ə qarşı vuruşan birləşmiş İraq höküməti və yerli Şiə qüvvələrinə (Həşd əş-Şəbi quruplaşması) dəstək verib .

2020-ci il yanvarın 3-nə keçən gecə ABŞ pilotsuz təyyarəsidən endirilən raket zərbələri nəticəsində general Qasim Süleymani şəhid oldu. Bu əməliyyat ABŞ Xüsusi Əməliyyatlar üzrə Birləşmiş Komandanlığı USSOCOM tərəfindən həyata keçirildi. Əməliyyat zamanı Qasim Süleymani ilə birlikdə doqquz nəfər şəhadətə qovuşdu. Onlardan biri də İraqdakı "Həşd-əş-Şəbi" şiə qruplaşmasının lideri Əbu Mehdi əl-Mühəndisi idi.

Şəhid Hacı Qasim Süleymaninin mübarək məzarı Kerman vilayətinin “Gülzar Şühəda” məzarlığındadır.

## *ALLAH YOLUNDA QORXUSU*

Əziz Rəhbərimiz seyyid Əli Xamenei şəhidin evində belə buyurur: "Hacı Qasim yüz dəfə şəhidliklə üz-üzə gəlib və bu, onun üçün birinci dəfə deyildi. Lakin Allah yolunda çalışmaqdan, vəzifəsini yerinə yetirməkdən, cihad etməkdən və ümumiyyətlə, heç bir şeydən çəkinmirdi. Düşməndən, onun-bunun sözlərindən və zəhmətə düşməkdən heç bir qorxusu yox idi. Təsəvvür edin ki, iyirmi dörd saat hansısa bir ölkədə olan bu qəhrəman, günün on doqquz saatını fəaliyyət göstərirdi. Müxtəlif insanlarla görüşür, onları inandırmağa çalışır və dəlil gətirməklə söhbət edirdi. Niyə belə edirdi? Əlbəttə ki, qarşı tərəfi istənilən bir nəticəyə çatdıra bilməkdən ötrü. O, nəfsinə görə deyil, əksinə uca məqsədə nail olması üçün çalışırdı. Hacı Qasim belə idi. Yaxşı yaşadı. Allah rəhmət eləsin. Həqiqətən də ömrü bərəkətli idi."

## *BÖYÜK CİHADIN QALİBİ*

Ayətullahul-uzma imam Seyyid Əli Xamenei hacı Qasimin ailəsinə belə buyurur: "Siz dözün və səbr edin! Bu dözümün mükafatı və savabı

vardır. Allah yolunda cihad etmək - batini mübarizə deməkdir. (İnsandan) Xaricdə baş verən hər bir cihad əslində batini cihada əsaslanır. Yəni düşmənin qabağına qorxmadan çıxan və bütün meydanlarda yorğunluğu, soyuğu, istini nəzərə almayan bir insan öz batinində böyük cihada qələbə çalmasaydı, (düşmənin qarşısına) bu cür çıxa bilməzdi. Buna görə də insandan xaricdə baş verən cihad, batini cihada əsaslanır. Siz də həmin batini mübarizənizə söykənin və qəlbinizi Allahı zikr etməklə rahatladın! İnşallah Uca Allah qəlbinizə rahatlıq verəcək. Biz də (bunun üçün) dua edərik.”

## İNQİLAB RƏHBƏRİNİN MESAJI

*"Ağır intiqam öz napak əlini dünənki hadisədə onu hacı Qasimin və başqa şəhidlərin qanına bulaşdıran cinayətkarların intizarındadır."*



## ŞƏHİDLİYİN BƏRƏKƏTİ

Şəhid Hacı Qasim Süleymani haqqında başqa bir məsələ bu böyük şəhidliyin bərəkətidir. Əziz şəhid qardaşımız hər dəfə bizə gördüyü işlər barədə istər yazılı, istərsə də şifahi hesabat verəndə, mən həm qəlbimdə, həm də dilimdə onu tərif edirdim. Amma bu gün onun səbəb olduğu şeyin, yəni ölkə və məntəqə üçün etdiyinin müqabilində mən təzim edirəm. Böyük iş görüldü, qiyamət etdi. Mənəviyyatı onun şəhidliyini bu cür yüksəltdi. Budur iranlıların və iraqlıların onu (cənazəsini) yola salmağı. Kazimeyində, Bağdadda, Nəcəfdə, Kərbəlada bu tikə-tikə olmuş bədənlər nə etdilər? Onun pak ruhuna dərin təşəkkürümüzü bildiririk.

***İran İslam Respublikasının***
***Ali dini Rəhbəri imam Seyyid Əli Xamenei***

## ŞÜCAƏTLİ, İXLASLI VƏ TƏDBİRLİ

Şəhid hacı Qasim Süleymani həm şücaətli, həm də tədbirli idi. Təkcə şücaət məsələsi deyildi. Bəzi insanlarda şücaət var, amma bu şücaətdən istifadə edəcək tədbir və müdrüklik yoxdur. Bəzilərinin idarəçilik qabiliyyəti var, lakin əməl

əhli deyillər və o işi görməyə ürəkləri yoxdur. Bizim bu əziz şəhidimiz həm ürəkli idi, yəni özünü təhlükənin ağuşuna atırdı və bundan da qorxu-hürküsü yox idi, həm də görəcək işləri üçün tədbir, düşüncə və məntiqi var idi. Yəni təkcə bu günün hadisələrində deyil, hətta "müqəddəs müdafiə" günlərində Sarəllah ordusunun komandiri olduğu zamanlarda belə o və əsgərləri özlərini təhlükəyə atırdılar və heç bir çəkinəcəkləri yox idi. Tədbirlə olan bu şücaət təkcə hərbi sahədə deyil, siyasət meydanında da var idi. Mən onun davranış və işlərini görür və siyasət meydanında fəaliyyəti olan dostlara dəfələrlə bunu deyirdim. Siyasət sahəsində də həm şücaətli, tədbirli, sözü təsirə malik, qane edici, həm də nüfuzlu idi. Bunların hamısından daha üstün onun ixlası idi. O, bu şücaət və tədbir qabiliyyətini Allah yolunda xərcləyirdi. Özünü göstərən riya və s. əhli deyildi. İxlas çox mühümdür.

*Ayətullahul-uzma imam Seyyid Əli Xameneinin Qum camaatı ilə görüşü*

## *RƏHBƏRİN MƏKTUBU*

Əziz Rəhbərimiz Seyyid Əli Xamenei şəhid hacı Qasim Süleymaniyə yazdığı məktubda belə buyurur: "Döyüş yerində olduğunuza görə sizdən necə narahatçılığım barədə bir söz demirəm, ancaq bilin ki, narahatam..."

Şəhid hacı Qasim Süleymani ağanın məktubunu oxuyandan sonra cavabında belə yazır: "Mənim dəyərsiz canım sizin narahatlığınıza dəyməz. Mənim canım sizin dəyərli canınıza min dəfə qurban olsun!"

İmam Seyyid Əli Xamenei şəhid hacı Qasimin ruhundakı şəhadət cizgilərini bizdən öncə görmüşdü. Əziz Rəhbərimiz 2005-ci ildə Kerman şəhərində şəhid Əzimpurun evində ailənin ondan şəfaəf istəyən kürəkəni Cavad Ruhullahiyə belə buyurur: "Prinsip etibarilə, aramızda şəfaət haqqı olan ilk şəxslər şəhidlər və sonra daşŞəhid valideyinləridir."

Sonra orada əyləşən hacı Qasim Süleymaniyə baxıb sözünə davam edir: "Bu hacı Qasim də inşallah şəfaət edənlərdəndir. Ona deyin ki, şəfaət edəcəyinə söz versin. Bu şərtlə ki, sonra sözündən dönməsin!"

Rəhbər başqa bir yerdə buyurur: “Şəhid hacı Qasim Süleymani sözün əsl mənasında, regionda terrorizmə qarşı mübarizənin ən güclü komandiridir. O, məhz belə də tanınır. Başqa hansı komandir onun gördüyü işləri görə bilərdi?! Düşmənin 360 dərəcəlik mühasirəsində olan bir bölgəyə helikopterlə daxil olur, tam mühasirəyə düşür. Komandirsiz qalmış igid gənclər onu görüb cana gəlirlər, ruhlanırlar və nəhayət mühasirəni yarıb düşməni qovurlar.

## *TƏBRİK MƏKTUBU*

İslam inqilabının Keşikçiləri Korpusunun Qüds Qüvvələri komandanı general-mayor Hacı Qasim Süleymani bu gün İslam inqilabının böyük Rəhbərinə məktub yazaraq “şəcəreyi-xəbis” (xəbis ağac) adlandırdığı İŞİD-in hakimiyyətinin sona çatdığını elan etmiş və bu böyük qələbə münasibəti ilə həzrət Ayətullah İmam Seyyid Əli Xameneini və İslam dünyasını təbrik etmişdi.

Məktubda deyilir: “Bağışlayan və Mehriban Allahın adı ilə. **Biz sənə açıq-aşkar bir zəfər bəxş etdi**k. (Fəth surəsi, ayə 1).

Mən sizin tərəfinizdən əmr almış bir əsgər kimi elan edirəm: İŞİD-in son qalası Əbu-Kamalın

azad edilməsi əməliyyatının başa çatdırılması ilə bu qurupun Amerika-sionist bayrağının endirildiyini, Suriya bayrağının qaldırıldığını və "şəcəreyi-xəbisin" işğalına son qoyulduğunu elan edirəm. Bu meydanın bütün komandirləri və adsız mücahidləri müsəlmanların həyatı, namusu, müqəddəs məkanların müdafiəsi yolunda canını fəda etmiş minlərlə iranlı, iraqlı, suriyalı, livanlı, əfqanistanlı, pakistanlı şəhid və müharibə əlilləri tərəfindən bir nümayəndə ünvanında bu böyük və təyin edici qələbə münasibəti ilə, sizi, böyük İran xalqını məzlum İraq və Suriya xalqlarını və digər müsəlman xalqlarını təbrik edir, bu əzəmətli qələbənin şükrünü etmək üçün Uca və Qüdrətli Allahın hüzurunda səcdə edirəm. Allahın salamı və rəhməti siz əziz və şücaətli Rəhbərimizin üzərinə olsun!

*Övladınız və əsgəriniz Qasim Süleymani*

Ali Məqamlı Rəhbər İslam inqilabının “Keşikçilər Korpusunun Qüds Qüvvələri” komandanı general-mayor Hacı Qasim Süleymaninin “şəcəreyi-xəbis” adlandırdığı İŞİD hakimiyyətinin sona çatması ilə bağlı ünvanladığı məktubuna cavab olaraq buyurub:

“Böyük Allaha bütün varlığımla təşəkkür edirəm ki, siz və həmkarınız olan böyük ordunuzun müxtəlif səviyyələrdə apardığı fədakarcasına mübarizələrə bərəkət verdi və dünya təcavüzkarlarının əli ilə Suriya və İraqda əkilmiş xəbis ağacın kökünü sizin kimi saleh bəndələrin əli ilə kəsdi. Bu təkcə qəddar və üzüqara İŞİD terror qruplaşmasına endirilmiş zərbə deyildi. Regionda daxili müharibə yaratmış, antisionist müqaviməti yox etməyi, müstəqil dövlətləri bu qrupun qəddar rəhbərləri vasitəsi ilə zəiflətməyi hədəfə almış xəbis siyasətə endirilmiş daha ağır zərbi idi.

Siz xərçəng yığını olan öldürücü İŞİD-i darmadağın etməklə təkcə region dövlətləri və İslam dünyasına deyil, bütün xalqlara və bəşəriyyətə böyük xidmət görstərdiniz.

Sizi İraq, Suriya və digər ölkələrdən olan mücahid qardaşlarınızı Böyük Allaha tapşırıram,

hamınızı salamlayır və sizlərə dua edirəm. Allahın salamı və bərəkəti üzərinizə olsun!”

*30 Aban 1397 (21 Noyabr 2017)*
*İslam İnqilabının Böyük Rəhbəri*

## CÜMƏ NAMAZINDA

İmam Seyyid Əli Xamenei şəhid hacı Qasim Süleymaninin şəhadətindən iki həftə sonra Cümə namazında buyurdu: “Biz əziz şəhid hacı Qasim Süleymaniyə fərd kimi baxmayaq, bir məktəb kimi baxaq. Əziz şəhid komandirimizə bir məktəb, bir yol və öyrədici məktəb gözüylə baxaq.”

Həqiqətən də şəhid hacı Qasim Süleymani böyük bir məktəbdir. O, öz mübarək qanı sayəsində müqavimət məktəbinə izzət gətirdi. Hacı hər zaman məzlumların yanında olar, onlarla mehriban davranar və onlara nəvaziş göstərərdi. Zalımlara qarşı isə çox sərt və möhkəm idi. Bu xüsusiyyətlər onun həqiqi ixlaslı bəndə və Allah dostlarından olmasının nişanəsi idi.



## CANIMI FƏDA EDƏRƏM

Həyatımda aldığım İlahi nemətlərdən biri də şəhid hacı Qasim Süleymani ilə tanışlıq və aramızdakı qardaşlıq münasibətləri, dostluq idi. Hacı Qasim üçün canımı fəda etməyə hər zaman hazır idim. Dostlarımızla söhbət edərkən Hacı Qasimin mənim üçün bu qədər yüksək məqama sahib olduğunu söylədim. Bir dostum məndən hacının haqqında niyə belə bir fikir söyləməyimi soruşdu. Ona dedim ki, iki səbəbə görə bu fikirdəyəm. Birincisi, aramızda mövcud olan dostluq və qardaşlığa görədir; ikincisi isə onun varlığının digər insanlardan daha çox İslama, müsəlmanlara, ümmətə və müqavimətə xidmət etdiyinə inanıram. Bu sadəcə bir duyğu məsələsi deyil, mən bu insanın varlığına belə bir səviyyədə inanıram. Onun ürəyimdə belə bir yeri var."

***Hizbullah müqavimət hərəkatının baş katibi şəhid seyyid Həsən Nəsrullah***

## GÜCLÜ VƏ BACARIQLI ÖLKƏ

İran İslam Respublikası güclü və bacarıqlı ölkədir. Belə ki, bölgədəki müttəfiqlərə ehtiyac duymadan təcavüzkarlara istədiyi yerdə cavab

verir. Qasim Süleymaninin şəhid olmasından sonra İİR-nın ABŞ hərbiçilərinin "Eyn-Əsəd" bazasını hədəfə almasını buna misal gətirmək olar.

İran ölkəsi hacı Qasim Süleymanini milli qəhraman hesab edirsə, biz Livanda onu İslam dünyasındakı və bütün dünyadakı məzlumların qəhramanı hesab edirik. Çünki o, yalnız şiələr üçün deyil, əksinə bütün bəşəriyyətin xilası üçün çalışmış və özünü bu yolda qurban etmişdir.

Bu əziz generalın fəaliyyət və nəaliyyətləri çoxdur. Onun haqqında deyilənlər mövcud olandan çox kiçikdir və danışılası mümkün olmayan bir sıra məsələlər vardır. şəhid hacı Qasim Süleymaninin və yoldaşlarının əsas qatillərindən və sui-qəsd icraçılarından intiqam alması hər bir azad və şərəfli insanın borcudur.

***Hizbullah müqavimət hərəkatının baş katibi şəhid Seyyid Həsən Nəsrullah***

## YORULMAZ ŞƏHİD

Əziz general şəhid hacı Qasim Süleymani heç vaxt işləməkdən və çalışmaqdan yorulmazdı. Bu böyük şəhid həmişə döyüş meydanına gedib vəziyyəti yaxından izləyər və döyüşçülərin

sözlərini təmkinlə dinləyərdi. Belə bir xarakter ona idarə etmədə və komandanlıqda xüsusi bir imtiyaz bəxş edirdi. General Süleymaninin digər bir xüsusiyyəti onun yorulmayan iradəsi idi. O, heç vaxt işləməkdən və çalışmaqdan çəkinməzdi. Çətinliklər və problemlər qarşısında çox səbirli və dözümlü idi. O, hamıdan çox İslama, müsəlmanlara və müqavimətə xidmət edirdi. Mənim və müqavimət qüvvələri nəzdində çox yüksək mövqeyə sahib idi.

Suriyalı və iraqlı komandirlər həmişə deyirdilər ki, İŞİD-ə qarşı mübarizədə şəhid Süleymani döyüşün ön xəttində, hərbiçilərin yanında idi və bu onun digər bir bariz xüsusiyyəti idi. Müharibənin ilk günlərində Livanın İsrail ilə 33 günlük müharibəsi) hacı Qasimin Livanda olması çox həyati və əhəmiyyətli idi. Bununla bərabər o, müharibənin son gününə qədər Livanda qaldı.

***Hizbullah müqavimət hərəkatının baş katibi şəhid Seyyid Həsən Nəsrullah***

## MÜQAVİMƏT RUHU

Biz hər dəfə onun və İslam respublikasının qonağı olanda birlikdə yeyirdik, birlikdə

otururduq, sözlərini dinləyirdik. O da bizim fikirlərimizə qulaq asırdı. Həmişə onun lütfünü və təvazökarlığını görürdük. Deyirdi ki, mən sizin qulluqunuzdayam.

Hacı Qasim Süleymani Fələstin müqavimətinə müxtəlif şaxələr əlavə etdi, Allah-təalanın köməyi ilə Qəzza zolağında müqaviməti genişləndirdi. O, müqaviməti ehtiyacı olan hər bir şeylə, o cümlədən siyasi, hərbi, hətta təhsil imkanları ilə təmin edirdi. şəhid hacı Qasim Süleymani Fələstinin müqavimət ruhu idi və müqavimətin nəbzi onun dəstəyi ilə döyünürdü.

Səraya əl-Qüds, Əl-Qəssam və Fələstin müqavimətinin digər İslamçı və millətçi təşkilatları arasında fərq qoymurdu, hamıya kömək edirdi. Çünki, bizim hamımız sionist düşmənə qarşı vuruşurduq. Hacı Qasim Süleymani məşhur olduğu böyük səbri ilə Qəzzədə müqaviməti gücləndirə bildi. O, Fələstinə bir fələstinli kimi eşq bəsləyirdi.

***Fələstin "İslami Cihad Təşkilatı"nın siyasi şurasının üzvü Xalid əl-Bəşt***

## *FƏHLƏNİN DUASI*

Bir gün Nəcəfdə İmam Əlinin (ələyhissalam) hərəm kompleksinin Həzrət Zəhra (ələlyhəssalam) həyətinə baxış zamanı mən danışırdım, onun isə gözləri başqa yerdə qalmışdı. Kənarda sadə bir fəhlə işləyirdi. Birdən mənim məruzəmə fikir vermədən fəhləyə sarı getdi, qucaqlayıb üzündən öpdü və dedi: "Mənim üçün dua et. Burada işinizin böyük savabı var." Sonra başqa fəhlələrə yaxınlaşıb onlarla danışmağa başladı. Mən narahat halda dedim: "Hacı, bizə bir saat vaxt vermisən ki, gəlib baxasan, mən də məlumat verim. Amma bizi qoyub başqa yerə gedirsən." Hacı buyurdu: "Səni çox görürəm, sonra da məruzə edə bilərsən. Bu uşaqları isə bir də görməyəcəm. Bunlar dəyərli insanlardır. Bunlardan şəfaət və dua istəməliyəm. Bu əzizlərin işinin savabı sizin işinizdən çoxdur."

***Həsən Polarək***

## *ŞƏHİD AİLƏLƏRİNƏ MÜRACİƏT*

Övladlarım! Qız və oğullarım! şəhid övladları! şəhidlərin ata və anaları! Ey ölkəmizin nurlu

çıraqları! şəhidlərin vəfalı və dindar bacı-qardaşları və həyat yoldaşları! Bu dünyada Quran səsi kimi rahatlıq tapdığım, özünü ən böyük mənəvi dayaq bildiyim səs, bəzən hər gün ünsiyyətdə olduğum şəhid övladlarının vücudlarında hər anımı hiss etdiyim şəhid valideyinlərinin səsi idi. Əzizlərim! Nə qədər ki, bu xalqın öncüllərisiz, öz qədrinizi bilin və şəhidinizi özünüz də yaşadın! Qoy sizi görən hər kəs şəhidin özünü, mənəviyyatını, möhkəmliyini və digər xüsusiyyətlərini hiss etsin! Xahiş edirə, haqqınızı halal edin və məni bağışlayın! Mən çoxunuzun hətta şəhid övladlarınızın da haqqını tam ödəyə bilmədin. Tövbə edir və əfv diləyirəm. İstəyirəm ki, cənazəmi şəhid övladları çiyinlərinə götürsünlər. Bəlkə onların pak əlləri sayəsində Allah Öz lütfünü mənə şamil edər.

***İslam ümmətinin əziz şəhidi hacı Qasim Süleymani***

## *BİR XANIMIN İSTƏYİ*

Bir xanım hacı Qasimdən onun üçün bir şey yazmasını istəyir. Hacı ona belə yazır: “Allahın adı ilə. Hörmətli bacım, bir neçə məqama diqqət yetirməniz lazımdır: Birincisi budur ki, siz dünyada, xüsusən də İslamda və şiəlikdə uca qadın məqamının təlimini qoymuş bir şəxsiyyətə, yəni Fatimeyi-Zəhraya (əleyhəssalam) və dəyərli qızı Zeynəb-Kübraya (əleyhəssalam) mənsubsunuz. Buna əsasən, bu davamçılığın şərtlrərini yerinə yetirin, həyat və davranışda onların yüksək keyfiyyətləri ilə bəzənin! Dualarınızda bizi unutmayın!

***İslam ümmətinin əziz şəhidi hacı Qasim Süleymani***

## *İXLAS BƏRƏKƏTƏ MALİKDİR*

Mənim əzizlərim, namaz qılan qardaşlarım və bacılarım! İxlas bərəkətə malikdir. Harda ixlas olsa, Allah -təala öz sədaqətli bəndələrinə bərəkət bəxş edər. Onların işləri bərəkətli olar və get-gedə daha da inkişaf edərlər. İşləri elə bir qaydada olar ki, onun təsiri hamıda hiss olunar. Onun bərəkəti

insanların arasında davamlı olar. Bu, qəlbin saflığından irəli gəlir. Həmin ixlasın nəticəsi məhz insanların elə həmin eşq və sədaqətidir, onların həmin göz yaşları və ahıdır, onların səmimiyyəti və inqilabi əhval-ruhiyyəsinin yenilənməsidir.

***İslam ümmətinin əziz şəhidi hacı Qasim Süleymani***

## ŞƏHİD ANALARININ DUASI

Şəhid hacı Qasim Süleymani şəhid analarını və şəhid ailələrini çox düşünürdü. Səbrli idi, bu işi tərk etmirdi. Bir dəfə hacıdan soruşdum ki, bu qədər səbri hardan gətirirsən? Buyurdu: Bilirsən, Kermanda nə qədər şəhid anası namazında mənim üçün dua edir? Bu dualar sayəsində Allah-təala mənə səbir və dözüm verir.

Hacı ölkənin harasında olsaydı, hörmətli şəhid ailələrinə baş çəkər və problemlərini həll etməyə çalışardı.

***Əlirza Rəzm Hüseyni***

## *İNDİ BİLDİK Kİ, YETİM QALDIQ*

Sübh namazından sonra hacı Qasim Süleymaninin şəhid olduğunu eşidəndə ağladım. Hadinin şəhadət xəbərini eşitdiyim günü bir də yaşadım. Uşaqlarım da deyirdilər ki, ana sanki, atamızın müsibəti təzələndi və indi bildik ki, yetim qalmışıq.

***Suriyada şəhid olmuş hərəm müdafiəçisi general-mayor Hadi Kəcbafın həyat yoldaşı Şahzadə Əhmədizadə***

## *"YA ZƏHRA" ZİKRİ*

Rəfsəncan şəhərinin cümə imamı höccətül-İslam Əsğər Əsgəri deyir: şəhid hacı Qasim Süleymaninin Həzrət Zəhraya (əleyhəssalam) xüsusi sevgisi vardı. "Ya Zəhra" zikri dilindən düşmürdü. Hacı həmişə deyərdi: "Biz qabırğaları sınan ananın uşaqlarıyıq."

## *BİZ İMAM HÜSEYN (ƏLƏYHİSSALAM) MİLLƏTİYİK*

Biz Şəhadət millətiyik! Biz İmam Hüseyn (əleyhissalam) millətiyik! Biz çətin və ağır

hadisələri artıq geridə qoyduq. İnqilabın ilk günlərindən indiyədək biz bütün meydanlarda İmam Hüseynin (əleyhissalam) ətəyindən yapışaraq irəli getmişik. Bütün qələbələrimizi məhz bu yolla əldə etmişik. Bu cəbhə özünü İmam Hüseynin (əleyhissalam), Əhli-beytin (əleyhimussalam) və Onların əshabına oxşatmaqla təlim və təhsil alır, gündən-günə sanki yenidən doğulur. Dünən ancaq İran var idi, lakin bu gün isə çoxsaylı qolları meydana gəlmişdir. Bu gün Yəməndəki Ənsarullah da İmam Hüseynə (əleyhissalam) iqtida edir.

***İslam ümmətinin əziz şəhidi hacı Qasim Süleymani***

## QONAQPƏRVƏR İNSAN

Şəhid Hacı Qasim Süleymani çox qonaqpərvər adam idi. İldə bir dəfə Qüds uşaqlarını ailəvi şəkildə toplayıb iftar süfrəsi açar, bir-bir ailələrin stollarına yaxınlaşıb hal-əhval tutardu. Hamı onunla şəkil çəkdirirdi. Tabeliyində olanlarla səmimi idi. Müharibə dövründən, həm də yalnız komandirləri ilə yox, bütün döyüşçü və əsgərlərlə səmimi idi. Bəzən bir əsgər və ya işçisi onu görüb

bir şey istəyəndə yerinə yetirirdi və heç kimi rədd etmirdi.

Şəhid Hacı Qasim Süleymani bəzən bütün komandirləri və ailələrini Məşhədə aparardı. Meyarı bu idi ki, onlar müharibə uşaqlarıdır. Səkkiz il bu meydanda olmuş, əsir düşmüş, əlil olmuş, İslam Respublikası üçün əziyyət çəkmişdilər. Hacı deyirdi ki, bunlar etimadlı insanlardır, İslam quruluşuna xəyanət etməzlər. Onların bəzisi 2009-cu il hadisələrində Kermanda fitnə öncülləri olmüşdular. Lakin buna baxmayaraq, hacı Qasim onları qorumaqdan ötrü öz hörmətini ortaya qoymuşdur. Hacı deyirdi: "Onlar nümunəni təyin etməkdə səhvə yol veriblər. Seçkilər bitib gedəcək, linqilab və vilayət isə qalacaqdır. Gərək bu qüvvələri quruluş üçün qoruyaq. Lazım olanda bunlar gedib vuruşacaqlar."

Həqiqətən də onların çoxu indi də inqilaba xidmət edir.

Allah bu əziz və pak şəhidi bizlərə duaçı və şəfaətçi qərar versin.

***Dostlarının yazdığı xatirələrdən***

## *MƏNƏVİ ATA*

Şəhid hacı Qasim Süleymani öz övladlarını necə tərbiyə edirdisə, onlara qarşı necə mehriban və qayğıkeş idisə, tabeliyində olan işçilərinə və əsgərlərinə qarşı da o cür idi. Öz övladları ilə əsgərləri arasında fərq qoymurdu. Onlara qarşı çox mehriban və səmimi idi. Bu əziz İslam şəhidi döyüşlərin qızğın anlarında belə döyüş meydanında ön cəbhədə əsgərlərin yanında olar və onlara ruh verirdi. Döyüşçülərin hansısa çətinlik və zəruri problemləri olsaydı, dərhal onları aradan qaldırırdı. Heç vaxt işçilərinin və əsgərlərinin çətinliyə düşməsinə razı olmazdı. Onlara maddi köməklikdən əlavə, mənəvi dəstək də olurdu. İlahi vəzifələrində, əxlaq, tərbiyə, təqva və s. kimi mənəvi işlərində həmişə onlara dəstək verirdi. şəhid hacı Qasim Süleymani böyük və peşəkar hərbiçi olduğu kimi böyük əxlaqa, səbrə və İlahi təqvaya da sahib idi. Məhz onda olan bu İlahi keyfiyyətlərə görə Uca Allah ona izzət və mənəvi dəyərlər bəxş edərək onu milyonlarla insanların içərsindən seçmişdir. Hər kəs Allaha təqvalı və ixlaslı bəndə olsa, Allah ona xüsusi mənəvi keyfiyyətlər verər və onu cəmiyyətdə izzətli, şərəfli və alicənab edər, onun

sevgisini insanların qəlbinə salar və onu cəmiyyətdə sevdirər. Təqvalı və ixlaslı bəndəni Allah da sevər və onu yüksək məqamlara çatdırar. Hacı Qasimin səbr və ixlası düşməndən tez intiqam almağına mane olar və bu işdə tələsməzdi. Məhz bunun sayəsində döyüş meydanlarında böyük zəfər qazanaraq İslam ümmətinə və müqavimət məktəbinə hər zaman izzət gətirərdi.

*Dostlarının yazdığı xatirələrdən*

## YETİMLƏRİ ÇOX SEVİRDİ

İslam ümmətinin əziz şəhidi Hacı Qasim Süleymaninin İlahi mənəvi xüsusiyyətlərindən biridə bu idi ki, o yetimləri, məzlumları, miskinləri və şəhid övladlarını çox sevərdi. Onlara xidmət etməkdən, qayğı və nəvaziş göstərməkdən heç vaxt yorulmazdı və bu işi hər zaman sevə-sevə yerinə yetirərdi. Hacı Qasim Suriya və Qəzzada körpə uşaqlar üçün ehsan süfrəsi açıb onları yedizdirib- içizdirərdi. şəhid hacı Qasim Süleymani onlara öz övladlarından da artıq baxardı. O, şəhid valdeyinlərinin, şəhid

ailələrinin, şəhid övladlarının təsəlli yeri və Qəzza körpələrinin ümidü və dayağı idi.

Hacı Qasim İraq və Suriyada hansı məntəqəyə getsəydi, o məntəqənin əhalisinin böyük sevincinə və fərəhinə səbəb olardı. Hər kəs onu görsəydi, öpüb qucaqlayardı. Onu görənlər sanki bir nuru görürdülər. O çox səmimi və təvazökar idi. Hər kəsə səbirlə qulaq asıb dinləyər, nəsə çətinlik olsaydı, dərhal yerində həll etməyə çalışardı. Heç vaxt insanların qəlbini qırmazdı, əksinə hər zaman öz gözəl və xeyirxah əməlləri ilə onların ürəklərini şad edib sevindirərdi. Onu görən hər kəs ondan qürür duyardı. Hacı Qasim İraq və Suriyada olduğu döyüş məntəqələrində uşaqlar gündüzləri oynayıb gecələri rahat yatardılar. Məntəqə sakinləri də rahatlıq içində olardılar. Hacı Qasim ən çox körpə yetimləri, şəhid övladlarını sevər və şəhid valideyinlərinə xüsusi hörmət edərdi. Belə ki, hacı onlar üçün həm oğul, həm ata, həm də mənəvi bir dayaq idi.

## *MEYDANLARIN QƏHRƏMANI*

Şəhid Süleymani döyüş meydanlarının yenilməz sərkərdəsi və qəhrəmanı idi. Onu cəbhələrdə və döyüş meydanlarında görən

yorğun əsgərləri özlərində güc və qüvvət tapırdı. Onu görən əsgərləri şir kimi döyüş meydanına atılırdı.

O, yorulmaz, şücaətli və cəsarətli bir general idi. Həqiqətən də o, böyük qəhrəman və fateh idi. Tarixdə bir çox dırnaqarası sərkərdələr, fatehlər və qəhrəmanlar olub ki, bu gün nə onların adı var, nə də onları yada salan kimsələr. Həqiqi qəhraman odur ki, özündən sonra bir məktəb qoysun. Necə ki, İmam Hüseyn (əleyhissalam) öz mübarək qanı sayəsində bütün bəşəriyyətin nicatı üçün izzətli Aşura məktəbi qoydu.

Şəhid Hacı Qasim Süleymani də özündən sonra elə bir izzətli və əzəmətli müqavimət məktəbi qoydu ki, bu gün həmin əzəmətli məktəb məzlumların dayağı, zalımların isə kabusudur. Bu məktəb İmam Hüseynin (əleyhissalam) izzətli Aşura məktəbinə çatmaq üçün ən gözəl vasitədir. Hacı Qasim Süleymani məktəbi qeyrət və izzət məktəbidir. Bu əzəmətli məktəb qalibiyyət məktəbidir və bu məktəbdə məğlubiyyət yoxdur. Çünkü müqavimət məktəbi hər zaman zirvədə qalacaq Aşura məktəbinə bağlıdır.

## *ALLAH İLƏ MÜNACATI*

Şəhid hacı Qasim Süleymani Allah ilə münacat edər və şəhadət istəyərdi: "İlahi! Ey Əziz Allahım! İllərdir bir karvanda geri qalmışam və davamlı olaraq bəzilərinin o karvana tərəf getməsinə kömək edirəm. Amma özüm geri qalmışam. Sən Özün bilirsən ki, onları heç vaxt unuda bilmirəm. Həmişə onların xatirəsi və adları təkcə zehnimdə yox, qəlbimdə və gözlərimdə göz yaşı və ah-nalə ilə yad olublar.

Əziz Allahım! Cismim artıq naqisləşir. Necə ola bilər ki, bir ömür qapında duranı qəbul etməyəsən?! Xaliqim! Sevdiyim! Eşqim! Mən həmişə Səndən istəmişəm ki, canımı eşqinlə doldurasan və məni Özündən ayrı olduğumda yandırıb öldürəsən.

Əzizim! Mən bu qərarsızlığımdan və karvanda geri qalmaq rüsvayçılığından cana gəlmişəm. Mən bu ümidlə qışda və yayda bir səhradan o səhraya gedirəm. Ey Kərim! Ey Həbib! Kərəminə ürək bağlamışam. Özün bilirsən ki, Səni sevirəm. Yaxşı bilirsən ki, Səndən başqa heç nə istəmirəm. Məni özünə vəsl et (birləşdir)!

İlahi! Bütün vücudumu vəhşət bürüyüb. Mən öz nəfsimi ram etməyə qadir deyiləm. Məni

rüsvay etmə! Hörmətini Özünə vacib bildiyin kəslərin hörmətinə, hörmətlərinə xələl gətirəcəyim bir iş görməmiş, məni onların karvanına qoş!

Allahım! Mənim əllərimdə heç bir şey yoxdur. Nə təqdim etməyə bir şeyim var, nə də müdafiə qüdrətinə malikəm. Ancaq əllərimdə elə bir şey saxlamışam ki, məhz həmin ehtiyata ümid edirəm və o da daim Sənin istiqamətində addımlamaqdır. Onları Sənin istiqamətində qaldıranda, onları sənin üçün yerə qoyanda və dini müdafiə etmək məqsədi ilə əlimə silah götürəndə, bunlar mənim əlimin sərvətidir ki, onları qəbul edəcəyinə ümid edirəm.

Ey mənim Məbudum! Ey mənim Eşqim və Məşuqum! Səni sevirəm. Dəfələrlə Səni (qəlblə) görmüşəm və Səni hiss etmişəm. Səndən ayrı qala bilmərəm. Daha bəsdir, məni qəbul et! Elə qəbul et ki, Sənə layiq olum!

***İslam ümmətinin əziz şəhidi hacı Qasim Süleymani***

## *O, BİR DƏRYA İDİ*

Mən Onun haqqında hər dəfə oxuyub mütaliə edəndə yeni özəllik və dəyərlər tapırdım. O, əxlaqi, irfani və siyasi sahədə həqiqətən də insanların qəlbini fəth etmişdi.

Hacı Qasimin xüsusi özəlliklərindən biri də onun əzəmətli inqilaba, vilayət və müqavimət məktəbinə sadiq qalması idi. O, heç zaman inqilaba və müqavimət məktəbinə xidmət etməkdən yorulmazdı. Allah yolunda xidmət edib çalışmaq onun üçün ən gözəl işlərdən biri idi. Bu əziz General inqilabın əvvəllərindən şəhadətinə qədər dayanmadan gecə-gündüz ixlasla öz gözəl əməlləri ilə İslama, müsəlmanlara, Əhli-beyt (ələyhimussalam) məktəbinə və müqavimət cəbhələrinə misilsiz xidmətlər etmişdi. Hansı işin arxasınca getsəydi və həmin işə başlasaydı, onu uğurla tamamlayardı. Onun gördüyü bütün gözəl əməllər yalnız Allaha olan imanı və sevgisindən irəli gəlirdi.

Şəhid hacı Qasim Süleymani öz əxlaqı, təqvası, ixlası və səbri ilə insanlarda böyük təsir qoymuşdu. O, bu dünyada şəhidlər kimi danışdı, şəhidlər kimi yaşadı və sonda şəhidlik məqamına

yüksəldi. Hər kəs Allaha həqiqi bəndə olub təqvalı olarsa, Allah ona istədiyi məqamlardan da üstününü əta edər! Bu, İlahi bir vəddir.

Həqiqətən də Qasim Süleymani səadət axtarışında olan insanlar üçün gözəl bir nümunə və böyük bir məktəbdir!

Salam olsun sənə, ey məzlumların dayağı!

Salam olsun sənə, ey ürəklərin sərdarı!

## *YALANÇI MİLLƏTÇİLİK*

İrandakı millətçilərin böyük hissəsi yalandır. Millətçiliyi İslam qarşısında bayraq ediblər. Vətəni sevmək, ölkə üçün can-başla çalışmaq mənasında millətçilik yoxdur. Elə olsaydı, biz müharibədə millətçiləri hamıdan öndə görərdik. Səkkiz illik müharibədə xarici azadlıq hərəkatından və milli cəbhədən heç bir əsər-əlamət görmədik. Heç vaxt görmədik ki, ad yazdırsınlar, könüllü qüvvələrini toplayıb cəbhəyə bir batalyon və ya bölük göndərsinlər. Heç vaxt belə bir şey olmadı. Məqsədləri İslam dininə qarşı yalançı millətçilik idi.

***İslam ümmətinin əziz şəhidi hacı Qasim Süleymani***

## *VİLAYƏT ÇADIRI*

Məlumdur ki, İslam dünyasının həmişə rəhbərliyə ehtiyacı vardır. Şəriət və fiqh nöqteyi-nəzərindən Məsum (əleyhimussalam) tərəfindən təyin olunan və Ona birləşən rəhbərlik labüddür.

Yaxşı bilirsiniz ki, dünyanı silkələdən və İslamı dirçəldən ən pak din alimimiz İmam Xomeyni bizim fəqih rəhbərliyini ümmətin yeganə xilas nüsxəsi adlandırmışdır. Ey ona şiə kimi din baxımından, ya sünni kimi əqli baxımından inananlar! Hər bir ixtilafdan uzaq halda İslamın xilası naminə vilayət çadırını tərk etməyin! Vilayət çadırı - Peyğəmbər (salləllahu əleyhi və alihi və səlləm) çadırıdır!

***İslam ümmətinin əziz şəhidi hacı Qasim Süleymani***

## *KOMANDANLIĞIN ƏN PARLAQ MƏQAMLARI*

Hicri şəmsi tarixi ilə 1379-cu ildə (miladi tarixi ilə 2002) İslam inqilabının böyük rəhbəri həzrət Ayətullah imam seyyid Əli Xamenei tərəfindən İslam Keşikçiləri Korpusunun məsuliyyəti Hacı Qasim Süleymaniyə həvalə edildi. Onun İslam

inqilabı Keşikçiləri Korpusunda komandanlığının ən parlaq məqamları İranın Qərbi Asiyada, xüsusilə İslam intibahı prosesində, Livanın Hizbullah qruplaşmasının və həmçinin Fələstinin mübariz quruplarının qüvvətləndirilməsində nüfuzunu daha da möhkəmlənməsi ilə bağlıdır. Bunun da əyani şəkildə təzahürü müxtəlif döyüşlərdə, o cümlədən Livan Hizbullahı ilə sionist rejim arasındakı 33 günlük müharibədə, habelə Fələstin mübarizlərinin Qəzzada yüksək şəkildə silahlandırılmış İsrail ordusuna qarşı 22 günlük müharibədə özünü büruzə vermişdir.

## *SİZ OLMASAZ, İŞLƏRİ KİM GÖRƏCƏK?*

Bir dəfə əziz rəhbər məni çağırdı və işarə ilə yaxınlaşmağımı istədi. Yaxınlaşanda əlindəki kitabı açıb bir neçə şəhidin şəklini görsətdi. Şəhid Bakiri, şəhid Baqiri və şəhid Zeynəddin. Onlardan biri də mənim şəkilim idi. Mənə dedi ki, sizin şəklinizin digər şəkillərlə nə əlaqəsi var? Dedim: Cavanlıq şəkilim olduğuna görə biz həmyaşıd idik. Ağa buyurdu: Onlar vəzifələrini yerinə yetirib getdilər. Allahın məsləhəti bu idi ki,

siz qalıb onların işlərindən də çətin olan işləri görəsiniz. Siz olmasanız, bu işləri kim görəcək?!

***İslam ümmətinin əziz şəhidi hacı Qasim Süleymani***

## ŞƏHADƏT ONUN MÜKAFATI İDİ

O, İslamın və imam Xomeyni məktəbinin yetişdirdiyi ən görkəmli nümunələrindən idi. Bütün ömrünü Allah yolunda cihada həsr etdi. Şəhadət onun illər ərzində dayanmadan göstərdiyi səylərin mükafatı idi. O, getdikdən sonra Allahın yardımı ilə onun gördüyü iş dayanmayacaq və yolu davam etdiriləcək. Lakin ötən gecə çirkin əllərini onun və digər şəhidlərin qanına bulaşmış cinayətkarları ağır intiqam gözləyir. Şəhid Süleymani müqavimətin beynəlxalq simasıdır. Bütün müqavimət sevərlər onun intiqamını tələb edir. Bütün dostlar, elə düşmənlər də bilsinlər ki, müqavimət və cihad daha böyük əzmlə davam etdiriləcək. Qəti qələbə bu mübarək yolun mücahidlərilədir. Bizim əziz və fədakar sərkərdəmizin yoxluğu acıdır, lakin mübarizənin davam etdirilməsi və qələbə qatil və cinayətkarlar üçün daha acı olacaq.

*İslam ümmətinin rəhbəri*
*Ayətullah imam Seyyid Əli Xamenei*

## BÖYÜK İNSAN

İraqın tanınmış əhli-sünnə ruhanilərindən şeyx Xalid əl-Molla deyir: Hacı Qasim Süleymani ölkəsini tərk edib səhralarda terrorizmlə vuruşan iraqlılara məsləhətlər verir, quru torpaq üzərində istirahət edir. O, çox böyük insandır. İslamı və müsəlmanları müdafiə etmək məqsədi ilə İraqa gəlir, Suriyaya gedir.

## ZAMANINI TANIYAN DÜŞMƏN HİYLƏSİNƏ UYMAZ

Hacı Qasim Süleymani 2018-ci ilin 11 Fevralında Kerman əhalisinin möhtəşəm toplantısında belə deyirdi: "Bu günkü İran, Muhəmməd Peyğəmbərin (salləllahu ələyhi və alihi və səlləm) gətirdiyi İslama arxalandığına görə, düşmənin bütün təxribatlarını zərərsizləşdirə bildi. Çünki, zamanını tanıyan düşmənin hiyləsinə uymaz. Düşmən bizdən qorxur. Düşmənin qorxması və düşmənin

hiylələrinin iflası əsl Muhəmməd (salləllahu ələyhi və alihi və silləm) İslamına tabe olmağın nəticəsidir. İmam Xomeyni bu İslam üzərində təkid göstərirdi.

Əsl Muhəmməd (salləllahu ələyhi və alihi və səlləm) İslamına tabe olmaq, Süleymani məktəbinin ən böyük mesajıdır. İslama tabe olmaq isə imam Xomeyniyə və imam Xamneiyə tabe olmaq deməkdir. Hacı Qasim Süleymani Xomeyni məktəbini İslam məktəbinin davamı bilir. İmam Xamenei məktəbini də böyük Xomeyni məktəbinin davamı. İslam nəzəriyyəsində böyük rəhbər sərvəti və gücü düzgün mənəviyyatla birgə bilir və bunların səbəbini mənəviyyatdan görür. Həqiqi azadlıq mənəviyyatla əldə edilir və bu əsl İslamı formalaşdıran amillərdəndir."

## *İSLAMIN VƏ İMAMIN YETİRMƏSİ*

Şəhid hacı Qasim Süleymani İslamın və imam Xomeyni məktəbinin dəyərli yetirmələrindən və böyük şəxsiyyətlərindən idi. Onun İslama və müsəlmanlara dəyərli xidmətləri, şübhəsiz İlahi ədalət divanında qeyd olunan böyük sərvətdir.

***Ayətullah seyyid Əli Xamenei***

## GÖZ YAŞLARI

Axşam namazının vaxtı gəldi. Hacı Qasim namazda ucadan elə hönkürtü ilə ağlayırdı ki, hamımız heyrətləndik. Namazdan sonra cəsarətimi toplayıb hacıdan soruşdum: "Niyə bu qədər ağlayırdınız ? Hacı buyurdu: Bu son 24 saatda sionist rejimi bundan artıq rüsvay olmayacağından arxayındır. Buna görə də Qəzzə əhalisinin və xüsusilə məzlum körpə uşaqların başına dayanmadan bombalar tökəcək, onları qanına qəltan edəcək. Qarşımızdakı 24 saatda baş verəcək faciələrə görə narahatam."

Allaha yalvarırdı ki, bəlaları uzaqlaşdırsın.

*Doktor Misbah Baqiri Kəni*

## HƏZRƏT ZƏHRA (ƏLƏYHƏSSALAM) HAQQINDA

Bir qadın və bir insan üçün təsəvvür olan bütün yaxşı xüsusiyyətlər Fatimeyi Zəhrada (ələyhəssalam) cəm olmuşdur. O, adi bir qadın olmamışdır. Ruhani, mənəvi qadın və sözün əsl mənasında insan formasında yaradılmış mənəvi varlıqdır. Bütün Peyğəmbərlərin (ələyhimussalam) xüsusiyyətləri onda vardır.

*İslam ümmətinin əziz şəhidi Hacı Qasim Süleymani*

## CƏMİYYƏTİMİZ BİZİM AİLƏMİZDİR

Düşüncə fərqlərindən asılı olmayaraq, xalqın bütün təbəqələri hacı Qasimi sevirdi. O, xalq arasında təbəqələşməni düzgün saymırdı. Çıxışlarının birində deyirdi: "Mən və adamlarım, mən və yoldaşlarım, mən və müridlərim. Bu hicabsızdır, o hicablı, bu solçudur, o sağçı. Bəs kim qaldı?! Hicabı düzgün olmayan qız - bizim, sizin qızınızdır, cəmiyyətimizin övladıdır. Bunların hamısı bizim xalqımızdır. Bunlar bizim övladlarımızdır. Hizbullahçı, yalnız Hizbullahçı ilə əlaqə qurmamalıdır. Dindarlığı zəif olanla da münasibəti olmamalıdır. Cəmiyyətimiz bizim ailəmizdir."

## HACININ NƏSİHƏTİ

Hacı Qasimlə birlikdə təyyarə ilə Kermandan Tehrana uçurduq. Stüardın (стюардесса) birinin hicabı münasib deyildi. Hacı yavaşca o xanımı çağırdı və bir qədər onunla danışdı. Nə dediklərini bilmədim, amma bir neçə dəqiqədən sonra stüardı kamil hicabda gördüm. Hacının

rəftarından və xanımın redaksiyasından bəlli idi ki, çox mehriban şəkildə hicabını düzəltməsini ondan xahiş etmişdi.

*Höccətul-İslam Əsğər Əsgəri*

## ÜZÜYÜN HAQQINI ÖDƏYİN

Məşhəd şəhərindən olan şəhid Mehrabinin qızı Zeynəb deyir: "Mən bir gün bir mərasimdə idim, orada hacı Qasimi görüb yaxınlaşdım. Salam verəndən sonra dedim: Hacı Qasim, üzüyünüzü mənə verə bilərsinizmi ? Hacı başın aşağı salıdı və gülümsədi. Yenə dedim: Üzüyünüzü mənə verə bilərsinizmi? Soruşdu: Hansı şəhərdən gəlmisən? Mən də özümü təqdim edib dedim: Məşhəddən gəlmişəm. O, üzüyünü çıxarıb mənə verib dedi: Üzüyü sənə verirəm, amma gərək onun haqqını ödəyəsən!"

Şəhid Mehrabinin qızı Zeynəb deyir: Bu sözdən heyrətləndim və ondan soruşdum: Hacı, haqqını ödəmək nə deməkdir? Güldü və dedi: Yəni hər dəfə İmam Rzanın (əleyhissalam) ziyarətgahına gedəndə mənim şəhadətə yetişməyim üçün dua etməlisən.

Sanki qəlbim yerindən çıxdı və özümdən ixtiyarsız əlimi ona tərəf uzatdım və dedim: Üzüyü istəmirəm. Siz yaşamalısınız, siz müqavimət hərəkatının mehvərisiniz, siz imam seyyid Əli Xameneinin qolusunuz. Yüzlərlə mənim kimilər və şəhidlərin uşaqları şəhid olsaq da, heç bir şey olmaz. Amma siz yaşamalısınız."

## ŞƏHİD OLMAĞIN ŞƏRTİ

